Səh. 2 "Mən" "biz" olmayanda... – Azər Musaoğlu
Səh. 5 Sarvandan "Sarvan"la yayılan kimlik – Esmira Ələkbərli
Səh. 6 Sosial yardımın kölgəsində qalanlar – Çiyalə Osmanova
Səh. 6 İnsan nəyə inanırsa onu yaşayır – Aytən Fətullayeva
Səh. 3 Həyat yolumuzu özümüz seçək – Hacı Bəkiroğlu
Səh. 4 2086 MƏKTƏBDƏN YALNIZ 1807 İCTİMAİ MƏKTƏBDƏ TİBB İŞÇİSİ VAR
Səh. 7 Gülüşün estetikası – Elizbar Cavelidze



İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 MART 2024-CÜ İL
№ 06 (201)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## BAŞ NAZİR MÜSƏLMANLAR ÜÇÜN İFTAR SÜFRƏSİ TƏŞKİL EDİB



Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin adından ölkənin müxtəlif bölgələrində yaşayan müsəlmanlar üçün iftar süfrəsi təşkil olunub.

Mərasimdə dövlət rəsmiləri, deputatlar, Azərbaycan, Türkiyə, İran, İraq, Qətər və Türkmənistanın Gürcüstandakı səfirləri, din xadimləri, media və ictimaiyyət nümayəndələri iştirak ediblər.

İrakli Kobaxidze çıxışında qarşıdan gələn Ramazan bayramı münasibətilə ölkə müsəlmanlarını təbrik edib. O, Ramazan ayının şəfqət, sevgi, yardımsevərliliyi ilə seçilən bir ay olduğunu bildirib.

Qeyd edib ki, tarix boyu Gürcüstanda xristianlar, müsəlmanlar və digər dinlərə mənsub vətəndaşlar birgə qarşılıqlı hörmət, sülh şəraitində və mehriban yaşayıblar. Ənənə bu gün də davam edir və Gürcüstan dövləti gələcəkdə də bu tarixi adəti gələcək nəsillərdə yaşadacaq.

Onun sözlərinə görə, Gürcüstan dövləti 237 məscidi müsəlman icmasına verib, daha 20 məscid isə təhvil verilməyə hazırdır. Dövlət müsəlman icması üçün ayrılan maliyyəni 4 milyon 150 min lariyədək artırıb və gələcəkdə bu dəstək daha da artacaq.

Daha sonra çıxış edən Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze Gürcüstanda yaşayan müsəlmanların son illərdəki dini vəziyyəti ilə bağlı məlumat verib. O, dövlətin müsəlmanlara və digər ənənəvi dinlərə diqqət və dəstəyindən danışıb.

Gürcüstan Müsəlmanlar İdarəsinin şeyxi Faiq Nəbiyev, Qərbi Gürcüstanın müftisi Adam Şantadze, Şərqi Gürcüstanın müftisi Etibar Eminov da çıxış edərək ölkədə islam dininə göstərilən diqqət, hörmət və etimada görə hökumət başçısına təşəkkür ediblər, Ramazan ayı boyunca ölkənin müsəlmanlar yaşayan bütün bölgələrində dövlət tərəfindən təşkil olunan iftar süfrələrinə görə də minnətdarlıqlarını bildiriblər.

## GÜRCÜSTANDA EVLƏNƏNLƏRİN SAYI AZALIB



Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, 2023-cü ildə Gürcüstanda doğulan uşaqların sayı 40214 təşkil edib, bu, 2022-ci ilin göstəricisindən 5 % azdır. 2023-cü ildə doğulan uşaqlardan 21010-u oğlan, 19204-ü isə qızdır.

Statistikaya görə, 2023-cü ildə doğulan uşaqlar ən çox paytaxt Tbilisinin payına düşür (13697 uşaq), ən az uşaq isə Raça-Leçxumi və Kvemo Svaneti regionunda dünyaya gəlib (226 uşaq).

Doğum göstəricisi ötən il 2022-ci illə müqayisədə Kvemo Kartlidə də azalıb. Regionda 2022-ci ildə 5074 uşaq, 2023-cü ildə isə 4878 uşaq dünyaya gəlib.

Statistikaya əsasən, Kvemo Kartlidə ölüm halları da azalıb. 2022-ci ildə regionda 4528 nəfər, 2023-cü ildə isə 4159 nəfər dünyasını dəyişib.

2023-cü ildə Kvemo Kartlidə evlənmə sayında da azalma var. 2022-ci ildə 3216 evlənmə, 2023-cü ildə isə 2748 evlənmə qeydə alınıb.

Kvemo Kartlidə boşananların sayı isə çoxalıb. Belə ki, 2022-ci ildə 1283 boşanma halı qeydə alınmışdırsa, 2023-cü ildə bu rəqəm 1331 təşkil edib.

Bildirilir ki, 2023-cü ildə Gürcüstanda ümumi olaraq 22275 nikah qeydə alınıb, bu da əvvəlki ilin müvafiq göstəricisindən 14,5 faiz azdır. İlk nikah yaşı qadınlar üçün orta hesabla 29,7 yaş, kişilər üçün isə 32,1 yaşdır. 2023-cü ildə qeydə alınmış boşanmaların ümumi sayı isə 13664 təşkil edib, bu da əvvəlki ilin müvafiq göstəricisindən 3,1 faiz azdır.

## XARİCDƏ YAŞAYAN GÜRCÜSTAN VƏTƏNDAŞLARI PARLAMENT SEÇKİLƏRİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN KONSULLUQDA QEYDİYYATDAN KEÇMƏLİDİRLƏR




Xaricdə yaşayan Gürcüstan vətəndaşları parlament seçkilərində iştirak etmək üçün 2024-cü il oktyabrın 7-dək konsulluqda qeydiyyatdan keçməlidirlər. Bunu Gürcüstan Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Giorgi Kalandarişvili deyib.

Bildirilib ki, Gürcüstan qanunvericiliyinə görə, səsvermədə iştirak etmək üçün konsulluq qeydiyyatında olmaq mütləqdir.

Onun sözlərinə görə, konsulluq qeydiyyatında olanların siyahıları seçki məntəqələrinin açılması üçün əsas olacaq.

"MSK öz səlahiyyətləri çərçivəsində xaricdə yaşayan həmyerlilərin seçkilərdə iştirakla bağlı məlumatlandırılmasını təmin edən qanunun ardıcıl icrası üçün hər şeyi edəcək", – MSK sədri bildirib.

Qeyd edək ki, Gürcüstanda parlament seçkiləri oktyabrın 26-da keçiriləcək.



# “MƏN” “BİZ” OLMAYANDA...

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Dilimizin qrammatikasına əsasən, “mən” şəxs əvəzliyi cəmlənə bilmir. Elə yaxşı da ki cəmlənə bilmir, yoxsa mənəm-mənəm deyənlərin sayı daha çox olardı. “Biz”im bədbəxtçiliyimiz isə şəxs əvəzliyinin birinci şəxsin təkinin birinci şəxsin cəmi ola bilməməsi ilə başlayır. Baxmayaraq ki, buna dilimizin qrammatik qaydası da imkan verir, “mən” “biz” ola bilmir ki, bilmir; “mən” olsa-olsa ya deşik açmaq üçün ucu şiş metal alət – biz olur, ya da öz mənini ucaltmaq, şişirtmək üçün biz olur.

“Mən” “biz” olmayanda isə tək əldən səs çıxmır, tək daşdan divar olmur, tək ağacdan bağ olmur, tək uşaqdan bağça olmur, tək şagirddən məktəb olmur, tək tələbədən universitet olmur, tək adamdan cəmiyyət olmur, tək vətəndaşdan dövlət olmur və sair...

“Mən” “biz” olmayanda təşkilatlanmaq olmur (təşkilotulanmaq olur), ümumi problemlər xüsusi maraqlara çevrilir, ümumi maraqlar xüsusi təmənnaya çevrilir, xüsusi təmənna ümumi əmlakın istismarına çevrilir, ümumi əmlakın istismarı ümumun “biz”liyini, xüsusinin “mən”liyini öldürür və sair...

“Mən” “biz” olmayanda hər yerdə “mən” görünür: güzgüdə də, ekranda da, kürsüdə də, tribunada da, müxalifətin mitinqində də, iqtidarın tədbirində də, dovşanın yanında da, tazının dalında da, imamın qanında da, yezidin canında da və sair...

“Mən” “biz” olmayanda eqo əlinə alır sehirli güzgünü, deyir: “Güzgü, güzgü, söylə görüm kimdi ölkədə ən gözəl?” “Mən”inə o qədər vurulur ki, aya deyir, sən çıxma, “mən” çıxım. “Mən”dən başqa şəxs əvəzliyi tanımayıb, babam “mən”ə kor deyib, hər yetənə vur deyib, burda “mən”əm, Bağdadda kor xəlifə deyib “sən”i, “o”nu gözümçıxdıya salır. “Mən”ini elə göstərir ki, elə bil “biz”im, “siz”in, “o”nların dərdini bilinqual danışan, problemini kosmopolit həll edən, qayğısına etnik qalan başıuca, başıpapaqlı, başıqapazlı bircə budur, deməzsənmi, yanan da “mən”, yamanda “mən”...

“Mən” “biz” olmayanda “mən” oyunçu olur, “biz” tamaşaçı; “mən” aparıcı olur, “biz” dinləyici; “mən” ağıl verən olur, “biz” “tupoy”; “mən” deputat olur, “biz” əhali; “mən” feminist olur, “biz” 14 yaşında ərə gedən; “mən” təhsilli olur, “biz” göyərti satan; “mən” ziyalı olur, “biz” kütlə; “mən” təşəbbüskar olur, “biz” etirazçı, “mən” loyal QHT olur, “biz” radikal müxalifət; “mən” imkanlı olur, “biz” kasıb-kusub; “mən” hörmət edir, “biz” rüşvət veririk; “mən” hüquq-mühafizəçisi olur, “biz” hüququnu bilməyən, qanunu pozan nadan; “mən” Novruz bayramı olur, “biz” Kosa ilə Keçəl və sair...

Və bu “mən” yerlibazlıqdan, qohumbazlıqdan, hətta rayon və kəndbazlıqdan, yekaxanalıqdan, dombaldılmış pafosdan, reklamdan, “qoy mən tox olum özgələri ilə nədir karım”dan, “ancaq mənim avazeyi-şənim ucalsın”dan (M.Ə.Sabir) və bu kimi digər əxlaqsızlıqdan ibarətdir. Bu yerlibazlıq, qohumbazlıq, yekəxanalıq, pafos, reklam, öz mənafeyini düşünmək, mənəm-mənəmlik məni, səni, onu heç vaxt biz olmağa qoymur...

“Mən” hallananda da öz xeyirinə, öz cibişdanı üçün, öz adı-sanı üçün hallanır: mənim, mənə, məni, məndə, məndən deməkdən yerə-göyə sığmır.

“Mən” “biz” olmayanda “biz” bölünərək, parçalanaraq “mən”, “sən”, “o” olur.

# YENİ QADAĞA BÜTÜN MƏKTƏBLƏRƏ AİD OLACAQ – KONSTİTUSİYADA DƏYİŞİKLİKLƏR PLANLAŞDIRILIR



Parlamentdə hakim çoxluğun təşəbbüsü ilə iki – bir-birindən asılı olmayan Konstitusiya təşəbbüsü qeydiyyatdan keçiriləcək. Qüvvədə olan Konstitusiyada “LGBT təbliğata qarşı” dəyişikliklər layihəsi, eləcə də “Ailə dəyərləri və azyaşlıların müdafiəsi haqqında” qanun layihəsi təqdim olunacaq.

Dəyişikliklər ümumtəhsil müəssisələrinə də aiddir.

Planlaşdırılmış dəyişikliklərə görə, Konstitusiyanın 30-cü maddəsi korrektə ediləcək. Maddə nikah, ana və uşaq hüquqlarına aiddir. Qeyd olunan maddəyə aşağıdakı məzmunda yeni bənd əlavə olunur: “Ailə dəyərləri və azyaşlıların müdafiəsi Gürcüstan Konstitusiyası ilə təmin olunub və bu, Gürcüstan Konstitusiyasının ayrılmaz hissəsidir”.

“Ailə dəyərləri və azyaşlıların müdafiəsi haqqında” Konstitusiya qanun layihəsi 8 bənddən ibarətdir və bir sıra qadağaların tətbiq olunmasını nəzərdə tutur.

Konstitusiya qanun layihəsi ilə hakim komanda sonrakı məhdudiyyət və qadağaların qəbul edilməsini planlaşdırır:

1. Qanunvericiliyə əsasən, yalnız ən azı 18 yaşı olan bir genetik kişi ilə bir genetik qadının nikaha oxşar münasibəti tənzimlənə bilər.

2. Azyaşlının övladlığa götürülməsi və ya himayəyə alınması yalnız Gürcüstan Konstitusiyası və qanunvericiliyinə uyğun olaraq nikahda olan cütlüklər, heteroseksual şəxs tərəfindən mümkündür.

3. İnsanın cinsiyyətinin dəyişdirilməsi ilə əlaqədar istənilən tibbi müdaxilə qadağandır.

4. Dövlətin və yerli özünüidarə orqanının verdiyi sənədlərdə yalnız genetik göstəricilərə uyğun olaraq qadın və ya kişi cinsi qeyd olunacaq.

5. Hakimiyyətin və ya fərdin cinsi əlamətlə müəyyən edilmiş anlayışlardan istifadə etməsini birbaşa və ya dolayı formada məhdudlaşdıran istənilən qərarı etibarsızdır.

6. Eynicinslilərin ailə və ya intim münasibətləri, insest, eynicinsli cütlüklərin və ya qeyri-heteroseksual şəxs tərəfindən azyaşlının övladlığa götürülməsi, himayəyə alınması, cinsiyyətin dəyişdirilməsi ilə əlaqədar tibbi müdaxilə, yaxud cinsi əlamətlə müəyyən edilmiş anlayışların istifadə olunmamasının populyarlaşdırılmasına yönəlmiş toplantılar qadağandır.

7. Eynicinslilərin ailə və ya intim münasibətləri, insest, eynicinsli cütlüklərin və ya qeyri-heteroseksual şəxs tərəfindən azyaşlının övladlığa götürülməsi, himayəyə alınması, cinsiyyətin dəyişdirilməsi ilə əlaqədar tibbi müdaxilə, yaxud cinsi əlamətlə müəyyən edilmiş anlayışların isifadə olunmamasının populyarlaşdırılmasına yönəlmiş məzmunda proqramın, digər materialların yayımlanması qadağandır.

**8. İctimai və ya özəl təhsil müəssisəsinin təhsil prosesində eynicinslilərin ailə və ya intim münasibətləri, insest, eynicinsli cütlüklərin və ya qeyri-heteroseksual şəxs tərəfindən azyaşlının övladlığa götürülməsi, himayəyə alınması, cinsiyyətin dəyişdirilməsi ilə əlaqədar tibbi müdaxilə, yaxud cinsi əlamətlə müəyyən edilmiş anlayışların isifadə olunmamasının populyarlaşdırılmasına yönəlmiş məlumatların çatdırılması qadağandır.**

*Parlament çoxluğunun lideri Mamuka Mdinaradze martın 26-da baş tutan mətbuat konfransında bildirib ki, Konstitusiyada planlaşdırılan dəyişikliklərdən və Konstitusiya qanun layihələrindən irəli gələrək, yaxın gələcəkdə Parlamentdə bir neçə qanunda dəyişiklik layihəsi təşəbbüs olaraq irəli sürüləcək.*

*Mənbə: etaloni.ge*

# MƏCHULLUQ

(Etüd)



Naməlumluqla, qeyri-müəyyənliklə nəfəs-nəfəsə, göz-gözə oturmaq, sevməsən də bu məşum düşüncələrlə baş-başa qalmaq bilirsən nə deməkdir? Bu, qeyri-ixtiyarı nəfəsinin daralmağı, havanın çatışmadığı kimi bir şeydir. Qəfildən başını götürüb ayağın tutduqca getməkdir. Başını qaldırıb ətrafına baxınca döyükmək, harada olduğunu anlamamaqdır. Mən haradayam və ya niyə buradayam, buraya necə gəlib çıxmışam kimi sualları beynindən keçirməkdir. Boş-boşuna çək-çevir etməkdir. Dağı arana, aranı dağa daşımaqdır. Başını əllərinin arasında sıxmaqdır. Hərdən əllərini məqsədsiz-filansız ovuşdurmaqdır.

Məchulluq unudulmuşluq, yaddan çıxmışlıq kimi bir şeydir. Əstəğfürullah, Tanrının da yadından çıxardığı, unutduğu biri olmağını düşünməkdir. Özünü sonuncu zəvvarın bir də geriyə dönməyəcəyini anlayan mürgülü, yollarını ot basmış məbəd kimi hiss etməkdən dəhşətli nə ola bilər ki? Bilirsən belə düşünmək nə qədər ağırdır?

Yaxınlığında eşidilən azan səsi bir anlıq da olsa sənin özünə gəlmənə, gerçəkliyə qayıtmana çarə olur. Bir neçə dəqiqədən sonra kilsəsinin zənginin də çalınacağını düşünürsən. Nə zamanın azanıdır? Sabahdırmı, axşamdırmı? Məchulluğun zamansızlığı. Və yenə özünə qapılırsan. Ayağın altında xışıldayan payızın xəzəl olmuş yarpaqları, yanından ötüb-keçən adamlar, sahibinin verdiyi müvəqqəti azadlığın ləzzətini yaşayan kiçik köpəklər, xəzəllərin arasından təkəm-seyrək gözünə sataşan müxtəlif çiçəklər, küskünlüyü və kefsizliyi diqqəti cəlb edən pişik arada fikrini qarışdırsa da, sən qurduğun tənliyin cavabını aramaqdasan. Hörümçək qurduğu torundan ayrıla bilmədiyi kimi, sən də o sadə tənlikdən qopa bilmirsən. Necə qopasan? Hər şey məchuldur, məlumlar da məchul kimi.

Bu qeyri-müəyyənliyinə, naməlumluğuna, məchulluğuna lazımsızlıq, gərəksizlik kimi düşüncənin harasındansa boy verən xırdalıqlar qatılanda mənzərənin tündlüyünün necə əzabverici olduğunu bilirsənmi?

Dörd tərəfdən gələn qarmaqarışıq düşüncələrin burulğanından özünü xilas etməyi, qurtulmağı asan bilmə ha.

Neçənci dəfədir bura gəlməyin? Beşincimi, onuncumu? Cavabın yoxdur. Eyni su, suyun duruluğunda əks olunan masmavi göy üzü, səni görüb körpüyə yaxınlaşan eyni balıqlar. Yemək, yemlənmək istəmələri bəlli. Bir-birinə aman vermirlər. Gecikənlər də var. Eh, hamı yedi, bircə sizə qalmadı. Qırmızı xırda balıqlar. Yüzlərin, minlərin arasında cəmi bir ağ balıq, bir neçə dənə də qara. Gözəllik. Bu su, bu balıqlar, bu göy üzü gözəl olduğunun fərqindəmi? Uzaqda çinadanını bu qırmızı balıqlarla doldurmuş çöl ördəkləri qaqqıldaşmaqla minnətdarlıqmı bildirirlər? Kimə? Suyamı, qırmızı balıqlaramı, mavisi sularda əks olunan göy üzünəmi?

Çox şeyi görmürsən. Hər şey ala-tala, qırıq-qırıq. Başının üstündən uçan kiçik dron belə bu ala-talalığı, bu yarımçıqlığı bütövləşdirməkdə acizdir. Olsa-olsa bir anlıq səni qarma-qarışıq fikirlərdən ayırmağa gücü çatar.

Cəngəllikdə yolunu azmış adam kimisən. Hara gedəcəyini, bu məchulluqdan necə çıxacağını düşünsən də, çıxış üçün yollar arasan da məlumu tapmağın müşkül. Altıncı, lap elə yeddinci, səkkizinci hiss üzvün olsa da, çıxılmazlığın çiləkənindən səni qoparmağa yetmir. Sənə daha güclü bir təkan, o təkanı verəcək qüvvə gərək.

Sənsə o təkanın, o qüvvənin nə olduğunu bilməyəcək qədər aciz, mağmın. Bu dünyanın adamı olmamağı və ya ola bilməməyi asanmı sanırsan?

**Afiq MUXTAROĞLU**

# HƏYAT YOLUMUZU ÖZÜMÜZ SEÇƏK



**Hacı Bəkiroğlu**

hacihaciyev@hotmail.com

Tez-tez "niyə bu həmişə mənim başıma gəlir?", "bu da mənim şansım", "həmişə belə olur onsuz da" kimi cümlələr quraraq həyatımızda olub bitən bəzi xoşagəlməz hadisələr haqqında şikayətləndiyimiz çox etdiyimiz bir hərəkətdir. Bəlkə də bunu vəziyyətə dair heç bir gücümüzün, ya da iradəmizin olmadığını hiss etdiyimiz zamanlarda söyləyirik. Halbuki həyatımızda məmnun olmadığımız vəziyyətin dəyişməsi üçün ən çox gücü sərf edən yenə bizim özümüzük. Bu məmnuniyyətsizliyimizi aradan qaldırmaq üçün isə "mən məmnun olmadığım bir vəziyyəti dəyişdirmək üçün nə edirəm?" sualını özümüzə verməliyik. Digər tərəfdən isə özümüzə bir də kənar bir şəxsin gözü ilə baxmağı bacarmalıyıq. Əgər bunu bacara bilsək sualımızın cavabını da tapmış olarıq. Çünki məsələnin həlli bu cavabın tapılmasına bağlıdır.

Biz məmnun olmadığımız vəziyyəti dəyişməyə çalışmadığımız müddətcə məsələnin həlli mümkün olmayacaq. Bu mövzuda isə özümüzə olan güvənimiz əsas rol oynamaqdadır. Güvən hissi olmadıqdan sonra bizi hərəkətə keçirəcək motivasiya da olmayacaq. Motivasiya olmadığı təqdirdə ruh düşgünlüyü yaşanacaq. Ruh düşgünlüyü yaşayan insanda da mənfi enerji yaranır və bu da davranışlarımıza birbaşa təsir edir.

Düşüncələrimizin duyğularımız və davranışlarımız üzərindəki təsiri çox böyükdür. Bir mövzu ilə əlaqədar mənfi bir düşüncə quruluşuna sahibiksə, var olan potensialımızı da istifadə edə bilmərik. Nə qədər təchizatlı, qabiliyyətli, bacarıqlı olursaq olaq "mən bunu edə bilmərəm", "istəsəm də bacara bilmərəm" şəklində bir düşüncə quruluşuna sahibiksə, o potensialı istifadə edə bilmərik. Doğru zamanda və doğru şəkildə istifadə edilmədiyi müddətcə sahib olduğumuz potensial, məlumat və güc heç bir işə yaramaz.

Başqaları bizim nə edəcəyimizi və nə hiss edəcəyimizi təyin edə bilməz. Duyğularımızı şəkilləndirəcək qərarları biz almalıyıq. Hirsli, ya da sakit olmaq; xoşbəxt, ya da bədbəxt olmaq; ümidli, ya da çarəsiz olmaq verdiyimiz qərarlara və seçimlərimizə bağlıdır. Müsbət və ya mənfi davranışları seçmək tamamilə bizim öz əlimizdədir. Seçimlərimizi fərqində olmaqla edə bilərik. Bu səbəblə də davranışlarımızdan biz özümüz məsuluq. Bunun fərqində olmaq, müsbət vəziyyət üçün "bunu mən istədim, mən seçdim" deyərək nəticənin dadını çıxartmağımıza, mənfi vəziyyət üçün isə "bunu mən seçdim, amma artıq istəmirəm" deyərək vəziyyəti dəyişdirə bilmə gücümüzü xatırlamağımıza kömək edər.

Qısası, düşdüyümüz vəziyyətlərin məsulu olaraq həmişə şərtləri, ya da başqa insanları günahlandırırıq. İçində olduğumuz vəziyyətin məsulu olaraq şərtləri, ya da başqalarını məsul tutaraq yaşadığımız heç bir şeyin idarəsini əlimizdə hiss edə bilmərik. Bu vəziyyətdə yaşanan mənfilikləri dəyişdirə bilmə gücümüz olduğunu da yox saymış olarıq. Halbuki yaşadığımız hər şeyi dəyişdirə bilmə gücünə sahibik. Bəli, burada deyə bilərsiniz ki, bəs qədərə inanmırsanmı? Əlbəttə, inanıram, çünki qədərə inanmaq inanc əsaslarımızın təməl şərtlərindəndir. Hər şeyi qədər deyib keçmək də olmaz. Çünki Allah bizlərə iradə verib ki, həyatımızda seçimlərimizlə və aldığımız qərarlarla özümüz istiqamət verərik. Əgər biz öz həyatımıza istiqamət verməsək, o zaman başqaları bizi yönlərdirəcək ki, bu da yanlış yollarda, yanlış həyat yaşamağımıza gətirib çıxaracaq.

Onu da qeyd edim ki, qorxu və qayğılarımızın həyatımıza təsir etməsi özümüzlə, ətrafımızla və gələcəyimizlə əlaqədar mənfi düşüncələrə sahib olduğumuzun göstəricisidir.

# 2086 MƏKTƏBDƏN YALNIZ 1807 İCTİMAİ MƏKTƏBDƏ TİBB İŞÇİSİ VAR



Gürcüstan Statistika Xidmətinin 2024-cü ilin mart ayına olan göstəricilərinə əsasən, 2086 ictimai məktəbdən 1807 məktəbdə tibb işçisi var. Bu barədə Gürcüstan parlamentinin hazırladığı hesabatda yazılıb. Hesabat Gürcüstanın təhsil müəssisələrində sanitar-gigiyenik və məktəb həkimləri normasının qorunması təcrübəsi, mövcud problmelərlə bağlıdır.

Təhsil, Elm və Gənclərin İşi üzrə Komitənin araşdırmasına əsasən, kadr çatışmazlığına görə məktəblər başqa yerdə işləyən mütəxəssisləri işə götürməli olurlar, onlar isə məktəbdə şagird üçün vacib olan zamana qədər qala bilmirlər.

***"İctimai məktəbdə tibbi heyət – həkim və ya tibb bacısı işə cəlb olunur, bütün özəl məktəblərin isə tibbi xidməti var. Ümumi hesabda məktəblərin 87 %-də məktəb həkimi və tibbi kabinet var. Ancaq məktəblərdə yeni vakansiyaların yaranması (həkim/tibb bacısı) kadr çatışmazlığına səbəb olub. Çünki həkimlərin əksəriyyəti bir neçə yerdə işləyir. Məktəb lazımi kadrı tapa bilməyəndə, məcbur olur ki, artıq işlə təmin edilmiş, paralel işləmək istəyi olan namizədi qəbul etsin. Baxmayaraq ki, şagirdin məktəbə girməsindən məktəbdən çıxmasına kimi həkimin/tibb bacısının məktəbdə olması vacibdir.***

***2023-cü ilin noyabr ayına olan göstəricilərə görə, 326 ictimai məktəbdə vakansiya elan edilmişdi (əksər hallarda yüksək dağlıq məntəqələrin, kəndlərin ictimai məktəblərində çatışmazlıq var)"*** – hesabatda yazılıb.

Tibb işçisinin iş saatlarında hansı öhdəliklər daşıması sərəncamla tənzimlənir və siyahı kifayət qədər genişdir. Araşdırmada başqa yerdə işləməklə yanaşı məktəbdə də işləyən tibb işçisinin bu öhdəlikləri necə yerinə yetirməli olduğu isə qeyd olunmayıb:

- *Məktəbdə şagirdin sağlamlığını qoruyur;*
- *Şagirdin yaşına uyğun riskləri nəzərə almaqla onun inkişafını müşahidə edir və lazım gəldikdə mütəxəssisə müraciət edir;*
- *Xəstəliklərə qarşı tədbirlər həyata keçirir;*
- *Məktəbdə şagirdlərin xroniki xəstəliklərinə nəzarət edir;*
- *Təcili tibbi yardım gələnə qədər şagirdlərə və məktəb işçilərinə ilk tibbi yardım tədbirlərini həyata keçirir;*
- *Məktəb rəhbərliyi ilə birlikdə qanun və qaydaların tələblərinə uyğun olaraq su, kanalizasiya/gigiyena və qida blokunun işinə nəzarət edir;*
- *Maarifləndirici tədbirlər həyata keçirir.*

Tədqiqat müəlliflərinin iki tövsiyəsinin məktəbin tibb işçiləri ilə, xüsusən də, onların imkanlarının gücləndirilməsi ilə bağlı olması əlamətdardır:

1. Məktəb həkimi/tibb bacısı üçün lazım olan xüsusi peşə bacarıqlarını gücləndirmək üçün xüsusi davamlı peşə təhsili proqramı inkişaf etdirilməli və onların mərhələli şəkildə hazırlanması həyata keçirilməlidir;

2. Məktəb həkiminin təhsili və təcrübəsi üçün məcburi tələblərin siyahısı genişləndirilməli və məktəb həkiminin əməkhaqqı siyasəti qiymətləndirilməlidir.

Tematik tədqiqatda iştirak edən 86 ictimai məktəbdən 8 məktəbdə tibb işçisi yox idi.

***"Məktəb tibb işçilərinin bölgü prinsipi şagirdlərin sayına və tədris binalarına uyğun olaraq müəyyən edilir. Böyük kontingenti olan məktəblərdə tibb işçilərinin olması məcburidir, şagirdlərin sayı az olan məktəblərdə, məsələn, dağlıq kəndlərdə tibbi xidmətin göstərilməsinin alternativ yolları, sanitar-gigiyena və tibbi maarifləndirmə işlərində kənd həkiminin xidmətinə icazə verilir. Ancaq yuxarıda qeyd olunan hal mümkün olmadıqda ərazi yaxınlığı prinsipi əsasında hər birində şagird sayı 50 nəfərdən az olan iki məktəb seçilə və bir tibb bacısının/həkimin həftənin günlərinə əsasən və ya məktəblərin ehtiyaclarına uyğun olaraq tərtib edilmiş cədvəl üzrə öhdəliyi müəyyən olunmuş növbətçiliklə yerinə yetirə bilər"*** – parlamentin araşdırma sənədində yazılıb.

Hesabatda neçə məktəbdə həkim kabinetlərinin yaradıldığı qeyd olunmayıb. Maliyyə nazirinin birinci müavini Giorgi Kakauridze hələ 2021-ci ildə deyirdi ki, əgər 2022-ci ildə olmasa, 2023-cü ilin sonunda məktəblərin 90 %-dən çoxunda həkim kabineti olacaqdır.

# MÜDAFİƏ NAZİRİNİN MÜAVİNİ: MƏQSƏD HƏRBİ İŞ FƏNNİNİN VACİB FƏNLƏRDƏN BİRİ OLMASIDIR

Yeni tədris ilindən hərbi iş fənninin 9-cu siniflərdə pilot fənn olaraq qəbul edildiyi məktəblərin sayına 40 məktəb əlavə olunacaq, yekun nəticədə bu, bütün məktəblərdə vacib fənn olacaq.

Bu barədə Gürcüstanın müdafiə nazirinin müavini Qriqol Giorqadze parlamentdə çıxışı zamanı bildirib. Parlamentin Təhsil Komitəsində Gürcüstanın Müdafiə Nazirliyinin hesabatı dinlənilib. Hesabatda dövlətin gənclər siyasətinin strategiyası və fəaliyyət planı kontekstində Müdafiə Nazirliyinə məxsus məqsədlərin yerinə yetirilməsi, fəaliyyətləri barədə söhbət açılıb.

Nazir müavininin sözlərinə görə, hərbi iş gənclərdə vətənpərvərlik ruhunun və marağının oyandırılması baxımından uğurlu layihələrdən biridir.

***"Hərbi iş indiki mərhələdə ictimai məktəblər üçün pilot fəndir. Amma biz düşünürük ki, məktəblərin iştirakını daha da genişləndirək. Həmçinin özəl məktəblərdə də bu fənn tətbiq olunsun. Yekun məqsəd bu olacaq ki, hərbi iş vacib fənn olsun. İndiki mərhələdə 80-ə yaxın ictimai məktəb qoşulub və buradan 20 məktəb dağlıq bölgələrin məktəbləridir. Fənni bizim ehtiyatda olan zabitlərimiz tədris edir, həmçinin ictimai məktəblərdə xüsusi otaqlar yaradılıb, həmin otaqlar müvafiq şəkildə təchiz edilib. Şagirdlər bizim hərb tariximiz, bizim müdafiə qüvvələrimiz haqqında məlumat alırlar. Bu, praktiki hissəni – mühüm bacarıqların inkişaf etdirilməsini də nəzərdə tutur",*** – deyə Qriqol Giorqadze bildirib.

Komitədə bildirilib ki, gənclərdə vətənpərvərlik ruhunun gücləndirilməsi ümumi təhsilin milli məqsədləri layihəsində də əsas olduğundan, bu fənnin ciddi qrafiki olacaq.

Komitə sədri nə zaman bütün məktəbərdə fənnin mənimsəniləcəyi və əsasən nəyə istiqamətlənəcəyi ilə maraqlanıb. Müdafiə nazirinin müavini bildirib ki, indiki məqamda xüsusi maneələrin həllinə ehtiyac var:

***"Qeyd etdiyim kimi, pedaqoqlar ehtiyatda olan zabitlərdir və Təhsil Nazirliyi ilə fəal əməkdaşlıq nəticəsində Müəllimlər Evində hazırlıq həyata keçirilir. Bizim seçim meyarlarımız var və namizəd yoxlayışdan keçirilir. Dərslik məktəb şagirdləri üçün tərtib edilib və adaptasiya olunub, vətəndaş müdafiəsi məsələlərini, eləcə də ümumi milli təhlükəsizlik, müdafiə qüvvələri ilə bağlı əsas məlumatları əhatə edir. Praktiki***





***hissə ilə birlikdə həftədə bir dəfə tədris olunur. Yeni tədris ilindən 40 məktəb əlavə olunacaq. Biz məktəbin hazırlıqlarından da asılıyıq, maraq var, ancaq müvafiq infrastrukturu nəzərə almaqla bizim pedaqoqun müvafiq regionda təmin olunmasını həyata keçirməyimiz məsələləri tənzimlənməkdədir. İstəyirdik ki, bu il də vacib fənn olsun, amma müxtəlif obyektiv səbəblərdən irəli gələrək hələ mümkün deyil, ancaq yekun məqsəd məhz budur".***

*Səhifədəki məlumatlar "edu.aris.ge" saytından götürülüb.*

*Gürcü dilindən tərcümə etdi:* **Aynurə ƏLİYEVA**

# SARVANDAN “SARVAN”LA YAYILAN KİMLİK



Bütün dünya xalqları eyni kökdən başlasa da, öz dəyərləri onları xalqlara, millətlərə böldü. Hər millət öz adət-ənənə, milli mədəniyyəti ilə bir-birindən fərqləndi. Buna milli dəyərlərimiz dedik. Bir milləti düşünəndə onlara məxsus atribut, geyim, rəqs, musiqi düşündük, bu dəyərlərlə tanıdıq, sevdik, hörmət etdik xalqalara, millətlərə. Bəzi dəyəri anlamayan dəyərsizlər bunu şovinistlik, millətçiliklə qarışıq saldılar – tamamilə fərqli məna, mənasız yanaşmadır.

Heç vaxt unutmayaq ki, öz kimliyini qiymətləndirməyən insana ətrafı da kimlik vermir. O, sıradan biri kimi sıralanır. Dünyanın hər yerində yaşayan və fəaliyyət göstərən hindlər qətiyyən nə libasını, nə rəqsini yaşadığı cəmiyyətdə mühit təsiriylə əritmədi, əksinə, mühiti öz milli dəyəriylə havalandırdı.

Bu gün guya müasirləşən bəziləri özündən uzaqlaşmaqla özünü təqdim etməyə çalışsalar da, unutmasınlar ki, özünü təqdim etməyi bacarmayanı özünə qiymət qoyan kəs qiymətləndirməyəcək!

Keçid dövrü adlandırdığımız illərdə bizim də çox dəyərlərimiz itib gedirdi. 2000-ci illərin əvvəlində Fazil Həsənovun sayəsində Marneuli şəhərində Azərbaycan Mədəniyyət Mərkəzi yaradılmışdı. Borçalıda yeganə olan bu mərkəz nəsə etməyə çalışırdı, amma, əlbəttə, tək əldən səs çıxmayacaqdı. O zaman bu günkü zamandan çox fərqli idi, hər sahədə. Bax bu zamanın içində bir Cəmilə vardı. Sarvanda – Marneuli şəhərində rus dili müəllimi idi. Uşaqları kiçik idilər. Marneulidən məzun olub Bakıda tələbə olmuşdu. Musiqi məktəbini bitirib özü sərbəst milli rəqsləri öyrənmişdi. Qohum-qonşu arasında uşaqlıqdan yığıncaqlarda gözəl rəqsi, ifaları ilə tanınmışdı. Ətrafın “nə gözəl rəqslərimiz varmış” deyərkən bayağı rəqslər onu çox qırırdı. Beləcə, günlərin birində Mədəniyyət Mərkəzinin açılması ona təkan verdi ki, bəlkə rəqs ansamblı yarada. İlk məsləhətçisi həyat yoldaşı Vilayət həkim oldu. Onlar birlikdə bu fikri Fazil müəllimə dedilər. Çox böyük yekdilliklə razılaşdı. Hər işin başlanğıcı çətin olur, amma bu çətin bir başqaydı. Əvvəl uşaqlarının bağça, məktəb yoldaşlarından başladı. Sanki “qılıqlaya-qılıqlaya” valideyləri qrupa çəkdi.

Təmənnasız, onların geyimini, lazımi əşyaları öz maddi vəsaitiylə təmin etdi. Axı özü də peşəkar deyildi. Həvəskar kimi başladı. Ansamblı təşkil etmək çətin idi. Valideynin məsuliyyətindən asılı idi. Məşq üçün otaq belə yox idi. Fazil müəllim öz şəxsi obyektini onlara məşq otağı vermişdi. Milli rəqs paltarları üçün bir neçə yerə müraciət olunsa da, tam təmin olunmurdu. İlk illərdə maddi və mənəvi çətinliklər çəkdi. Nə qədər çətin olsa da bacardı.



Bir neçə il keçdi, artıq Gürcüstan mədəniyyət sıralarında Kvemo Kartlidə fəaliyyət göstərən “Sarvan” ansamblı tanınmağa başlamışdı. Cəmilə xanımın milli dəyər sevgisi ansambla qavallı, sazlı, özünəməxsus rənglər qatırdı.

YUNESKO-nun təşkilatçılığı ilə Mtsxetada keçrilən rəsmi folklor festifalı idi. Ansambl onlara çox maraqlı gəldi. Cəmilə xanım özünün rəqs təhsili olmadığını deyəndə onu özlərinin “Sida” rəqs şöbəsində oxumağa dəvət etdilər. Beləliklə, yorulmaz insan özünü daha da təkmilləşdirdi.

Bundan sonra uğur qapısı açılmağa başladı. Atrıq nəinki Gürcüstanda folklor tədbirlərində, hətta ölkədən qırağa çıxış başladı. 2012-ci ildə Türkiyədə, İzmirdə təşkil etdiyi “Borçalı gecəsi” bir tarix yazdı. Buradan Aşıq Nargilə ilə yanaşı 20 nəfər tanınmış ziyalıları, el şairlərini dəvət etdi. Möhtəşəm bir layihə ilə sazlı-sözlü çıxış etdilər.

Türkiyədə, Gürcüstanda artıq tanınan ansambl öz təbliğat işlərini davam etdirirdi. Cəmilə xanımın uşaqlıq yaddaşında bir tarix də vardı – dağ yaylağı. Yayı Sarvanın çiçəkli dağlarında keçirdiyi günləri bir tarix etmək istədi. 2015-ci ildə Sarvanoba adlandırdığı bir geniş layihə təşkil etdi. Bu geniş mədəniyyət ssenarisini özü həyat yoldaşının dəstəyi ilə hazırladı. Xeyli rəsmi şəxsləri, mədəniyyət xadimlərini, hətta Azərbaycandan da tarixçi, alim, filoloq dəvət etdi. Barmaqsızın – Zalqanın illərin ətalətdə olan yaylaqları at kişnərtisi, zurna səsi, saz havası, rəqs havalarıyla lərzə gəldi. Pərvanə gölü pərvazlandı, buludlar sevindi, Günəşə yol verdi. Beləcə bir ənənəyə başlanğıc verdi Cəmilə xanım. Bundan sonra Sadaxlıoba, Dmanisoba ənənələri yarandı. Nə gözəl!

Artıq Cəmilə xanım Gürcüstan Rəqs Federasiyasının üzvü idi, festivallara, tədbirlərə qatılırdı. Kifayət qədər tanınan bir ansamblın rəhbəri idi.

Ən yadda qalan isə əcnəbi münsiflərin seçim etdiyi rəqs festifalında “Sarı gəlin” rəqsi qran-pri aldı, solo rəqqasə isə qızıl medalla təltifləndi. Bu artıq 20 illik əziyyətli bir yolun kulminasiya nöqtəsi idi.

Bu gün Cəmilə xanım öz sözünü demiş biridir. Ona bu yolun çınqılını, daşını, hətta bəzən sal daşlarını təmizləməyə çox az adamlar dəstək oldu, amma bacardı, kimsədən dəstək görmədən bacardı. Öz ətrafına özü kimi düşünən insanları yığmağı bacardı. Pərakəndə yığılan, yalvara-yalvara yığdığı qrup indi özü yığılır. Bir sözlə, o bacardı, bütün cəhdlərin sonu kimi.

Gürcü milləti öz dəyərlərinə qiymət verən millətdir. Dəyərini qiymətləndirənləri də qiymətləndirir. Gəlin özümüzə dəyər verək!

P.S.

Cəmilə xanım evinin bir küncündə Novruz guşəsi təşkil etmişdi. Ailəlikcə milli geyimdə, milli atributlarla nəvələri Batur və Nianurla, babalı, nənəli milli geyimdə bayram qarşılayırdılar.

Həmişə dəyərli olasınız, Cəmilə xanım!

**Esmira ƏLƏKBƏRLİ**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# YAXŞILIQ UNUDULANDA...



İnsanlara yaxşılıq edin, ətrafınıza, dünyaya yaxşılıq edin. Biz insan olaraq yaxşılıq nə deməkdir unutmuşuq. Biz insan olaraq ətrafımıza, heyvanlara və köməyə ehtiyacı olan insanlara kömək etməliyik. Dünyada onsuz da pisliklər çoxdur, biz də köməyə ehtiyacı olan insanlara və ya kiməsə pislik etsək bizə nə qalacaq? Hər kəs pislik etsə dünya necə bir yer olar?..

Küçədə gəzərkən və ya universitetə gedərkən metroda heyvanlara qarşı necə pis davrandıqlarını, pişikləri, itləri təpiklədiklərini görürəm... Onlar da bir can deyil? Zibili yerə atırlar, metroda pula ehtiyacı olan uşaqların üstünə qışqırırlar. Bunu edəndə kim nə qazanır axı? Elə insanlar görmüşəm ki, heyvanları ayaqlarıyla vurur, döyürlər. Bunun səbəbi nədir? Başa düşə bilmirəm, bu heyvanların günahı nədir? Sizə belə davranılsa xoş olarmı?..

Küçədə kimin üzünə baxırsan hər kəs kefsiz, bədbəxt və aqressivdir. Xoşbəxt bir insan görmək çətindir. Niyə? Heç düşünürsünüzmü niyə belədir?..

Biz insanıq, hər şey bizim əlimizdədir. Bizim dünya üçün pisliyə və yaxşılığa atdığımız addımlar dünyanı çox dəyişdirir. Bizim hər addımımızın, hər hərəkətimizin, hər sözümüzün bir dəyəri var. Biz bacardığımız qədər bütün uşaqların, insanların, dünyamızın daha da yaxşı olması üçün hərəkət etməliyik. Valideynlərin bizə qarşı davranışları, bizim onlara qarşı davranışımız, indiki dövrə baxanda, olduqca hörmətsizləşib. İnsanların bir-birinə qarşı göstərdikləri hörmət, demək olar ki, çox azdır.

Bu yaxınlarda Russiyada “Crocus City Hall”da terror hadisəsi törədildi. 360 insan xəsarət aldı, 139 insan isə həyatını itirdi. Axı niyə belə oldu? Belə bir şey etməyin nə zövqü var idi? O qədər günahsız insan niyə ölməli idi ki? Niyə bir insan belə bir şey törətsin axı?..

Başqa bir misal: Türkiyədə bir taksi sürücüsü bir kişini maşınına mindirib və gedəcəyi yerə qədər aparıb. O kişi isə taksi sürücüsünü öldürüb, bütün pulu alıb və sürücüyə “hər insana güvənməməlisən” deyərək çıxıb gedib. Axı belə eləməyin səbəbi nə idi? Niyə o pula görə bir insanın canını alırsan, öldürürsən? Axı o da kiminsə atası idi, o da kiminsə qardaşı idi, kiminsə övladı idi...

İnsanlar insanlığını itiriblər, qorxularını itiriblər, belə şeylər onların da başına gələ bilər deyə qorxmurlar. Biz insan olaraq bizə yaxşılıq edən kiməsə belə bir hərəkət edirіksə, kimdən kömək gözləyəcəyik? Belə davam etsə, sizcə, necə olacaq bizim dünyamız? Ayılın! Biz bir-birimizə yaxşılıq etməsək, kim edəcək?..

**Elvina HACIYEVA**

*Nizami Gəncəvi adına Beynəlxalq Elmlər Akademiyasının hazırlıq kursunun tələbəsi*

# SOSİAL YARDIMIN KÖLGƏSİNDƏ QALANLAR



Mağazada işləməyə başlayandan sonra öyrəndim ki, hər ayın iyirmisi sosial yardım günü imiş. Daha doğrusu yardım üçün nəzərdə tutulan məbləğin kartlara köçürüldüyü gün imiş. İlk iş ayımda ayın iyirmisi işdən yalnız yarım saatlıq icazə almaq istəyirdim və bunu bir gün əvvəlcədən bildirmişdim. Dükanda mənə sabah sosial günü olduğu üçün bunun mümkün olmadığını demişdilər. Həmin gün bunun nə mənaya gəldiyini bilmirdim, amma sabahısı gün öyrəndim.

Deməli, sosial yardım günü, yəni ayın iyirmisində yardım üçün nəzərdə tutulmuş məbləğ kartlara köçürülən kimi və ya kartdan çıxarıldıqdan sonra insanlar nəfəslərini qida mağazalarında dərirlər. O dərəcə alış-veriş olur ki, işçilərin yediyi yemək mədəsinə çatmamış həzm olunur. Kassa qabağında növbənin ucu-bucağı olmur. İnsanlarda elə fikir yaranıb ki, həmin məbləği elə həmin gün xərcləmək lazımdır. Buna görə də lazımlı-lazımsız hər şey alırlar.

İndi, ola bilsin, bəziləri fikirləşsin ki, bu məsələyə toxunmaqda məqsədim nədir. Deməli, sosial yardım almamışdan qabaq bir sıra proseduru yerinə yetirmək lazımdır. Daha doğrusu, həqiqətən bu yardıma ehtiyacları olduğunu təsdiq etmək üçün dövlət müəyyən yoxlanış edib apardığı qeydlər nəticəsində məbləğin miqdarını müəyyən etməlidir. Daha sonra həmin şəxsin, hansı ki, yardım almaq üçün müraciət edib, lazımi sənədləri qaydaya salınır, pulun köçürülməsi üçün bank hesabı açılır. Amma işlər bütün bununla yekunlaşmır. Yardım alan şəxsin iqtisadi vəziyyətinin az da olsa yaxşılaşması zamanı aldığı yardımın kəsilməsi halı da baş verə bilər, bu şərtlə ki, fiziki və ya əqli qüsurlu olmasın. Bax bu sonuncu cümlədə mənim diqqət mərkəzinə çəkmək istədiyim məsələ başlayır.

Sosial yardım almaq istəyən şəxs, əgər hər hansı bir əlilliyi yoxdursa, o təqdirdə yardım ala bilər ki, evi, işi, maşını və s. olmasın və ya çox uşaqlı ailə olsun. Elə buna görə də bəzi insanlar (bunların əksəriyyəti bizim millətin nümayəndələridir) nə ev almaq istəyirlər, nə də hər hansı bir işdə işləyirlər. Hələ əksəriyyəti pulun miqdarı artsın deyə dünyaya çoxlu uşaq gətirir. Eləsi də var, evini, maşınını başqasının adına keçirib yardım üçün dövlətə müraciət edir ki, mənim ehtiyacım var. Bəzən də həmin işlə məşğul olan dövlət nümayəndəsi öz qohumuna daydaylıq edərək saxta sənəd hazırlayır. Yəni uzun sözün qısası, hamı həqiqətən ehtiyacı olduğu üçün yardım almır. O ehtiyacı olmayanlar həqiqətən ehtiyacı olanların haqqına girirlər. Özünüz fikirləşin, hər dövlətin büdcəsi məhduddur və buna görə də sosial yardım verərkən məbləği də məhdud şəkildə ödəyir və ola bilsin, bu məbləğ heç həqiqətən ehtiyacı olan şəxslərin tələblərini ödəmir, onlar üçün yetərli deyil. Bax budur haqqa girmək. Bəlkə o saxtakarlıq olmasa məbləğin miqdarı bir az artıq olardı.

Bu saxtakarlar hələ bir qorxurlar, hər addımlarını tərəddüdlə atırlar ki, birdən yardımları kəsilər. Ölkə xaricinə çıxmırlar, evlərinə hər hansı bir avadanlıq almırlar ki, yardım kəsiləcək. Çünki onlar özləri də yaxşı bilirlər hər şeyin saxta olduğunu. Buna görə də pulu təkcə mağazalarda xırda-xuruşa xərcləyirlər. Əslində bunların tək səbəbi onların müftə yeməyə alışıb tənbəlləşmələridir. Bəzi insanlar işləmədən, əziyyət, zəhmət çəkmədən pul qazanmaq istəyirlər. Bunun da yollarından biri, bax, bu yardım məsələsidir. Onlar sırf müftə pul üçün öz həyatlarını yaxşı vəziyyətə gətirmirlər. Eləsi var heç paltaryuyan maşın belə almayıb, paltarları əli ilə yuyur. Səbəbi – yardım kəsilməsin. Pul daha şirindir. Həmin insanlar bəlkə şəraitlərini yaxşılaşdırmaq üçün çalışsalar sosial yardımdan daha çox məbləğ qazanarlar. Amma yuxarıda da dediyim kimi, bu adamların həyatının zəhmətlə birləşməsi boş çoxluqdur. Danışdırsan hamısı ölkə iqtisadiyyatından şikayətçidir. Di gəl ki, heç biri onu canlandırmaq üçün çalışmır, əksinə, "donuzdan bir tük də qoparsan qənimətdir" deyib parazit həyat tərzi keçirirlər. Bu səbəbdən də kölgədə qalırlar, ağ günə çıxa bilmirlər. Mən demirəm yardım almaq ayıbdır. Çatdırmaq istədiyim budur ki, kiminsə haqqına girmədən, həqiqətən ehtiyacın olduğu halda, öz vəziyyətini düzəldənə qədər yardımdan yararlanmaq olar. Yoxsa, sən əli-ayağı sağlam, əqli problemsiz adamsansa niyə saxtakarlıq edirsən. Heç nə demirəm, Allah hamınızın yardımını kəssin!

**Çiyalə OSMANOVA**
*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*

# İNSAN NƏYƏ İNANIRSA ONU YAŞAYIR



Bahar insanları təravətləndirən, insanlara təbəssüm bəxş edən, qışa əlvida deyən fəsildir. Mən ən çox baharı sevirəm. Hər fəsil gözəldir, amma bahar daha da gözəldir. Bəzən bir ili üç aya sığışdırmaq istəyirsən...

Bahar gələndə təbiət yaşıl və müxtəlif rənglər alır. Təbiətdəki bu dəyişiklik hər kəsi xoşbəxt edir. Rəngarəng çiçəklər açmağa başlayır. Qışın soyuğu ilə evini bağlayan insanlar yazla birlikdə qabıqlarından çıxıb özlərini təbiətə buraxırlar.

İnsanlar yaz gələndə tamam başqa psixologiyaya keçirlər. İnsanın ürəyi mənasız xoşbəxtlik və hüzurla dolur. İnsanlar sadəcə gəzmək və əylənmək istəyirlər. Çünki pəncərədən süzülən günəş işığı o qədər cəlbedicidir ki, dörd divar arasına sığmayacaq qədər isti görünür, özünü küçələrə, parklara atmaq istəyir adam. Çünki yayın qızmar günəşi və qışın şaxtalı günləri arasındakı bir sığınacaq kimidir bahar.

Hansımız uşaq olmamışıq. Hansımızın yaddaşında məktəblə bağlı acılı-şirinli, sevincli-kədərli, hamıdan gizlətdiyimiz məhrəm və ya hamı ilə bölüşməyə hazır olduğumuz, bizi yenidən uşaq olmağa sövq edən xatirələr yoxdur?..

O günlərə qayıdanda yadıma ilk öncə yaz fəslində məktəbə getməyimiz düşür. Məktəbə ən çox bahar gələndə getməyi sevərdik. Qışda qara, çovğuna görə məktəbə biri gələndə, biri gəlməzdi. Sinif otağına daxil olanda partaların çoxu boş olardı. Dərslər də qışın özü kimi əyləncəsiz keçərdi. Elə ki, yaz gələrdi hamımız sevinərdik, ən sevdiyimiz dərs bədən tərbiyəsi olmağa başlayardı, hava yaxşıdır deyə həyətə düşmək, oynamaq, vaxt keçirmək istəyərdik. Məktəbin həyəti uşaqların qəhqəhələri ilə dolardı. Sonra da səhər evdən geyinib çıxdığımız pencəklərimizi evə qayıdarkən qolumuzda asılı aparardıq. Hər il Novruz bayramından əvvəl dil-ədəbiyyat müəllimimiz "yazın gəlişi" adlı inşa yazmağı tapşırardı. İnşaya başlayarkən nə yazacağımı düşünürdüm. Sonra birdən-birə qələmi dəftərə toxundurar, içimdən gəldiyi kimi, təbiəti duyarcasına yazmağa başlayardım. Daşlardan-qayalardan axan su şırıltısından, quşların şən civiltisindən, uşaqların qəhqəhələrindən yaranan bu nəğmələrlə dünyanın, təbiətin gözəlliyindən, yazın gəlişi ilə çalarını dəyişib yamyaşıl rəngə bürünən meşələri, çəmənləri, dünyamızın hər bir qarışının gözəlliklərini xəyal edərək yazardım.

Oxuyarkən təbiətin bizim düşündüyümüzdən daha canlı olduğuna inandırmağa çalışardım dostlarımı. Danışmağa dili olmasa da, insanlara deməyə ürəkdolusu sözü var. Və bu sözləri baharda rənglərin dili, bulaqların şırıltısı, quşların cəh-cəhi ilə deyir. Bahar yeni arzular, həyatın oyanışıdır, təbiətin səsi hər yerdə eşidilir. Kimsə xoşbəxtliyi təsvir elə desə, onu bahar fəslinə bənzədərəm. Bəzən yaz yağışı yağsa da, güclü külək əssə də parlayan günəş həmişə bizi işıqlandırır.

Bahar fəslində həyat sürətlə axır sanki. İnsanların içlərindəki, adını qoya bilmədikləri, həyəcanın təmsilçisidir bahar. İnsan da xoşbəxtsə ürəyində güllər açır, gözləri bahar günəşi kimi parıldayır. İnsan nəyə inanırsa onu yaşayır. Nəyi görmək istəyirsə elə onu da görür. Bizlər budaqda tikanları deyil, onun üzərindəki çiçəkləri görsək hər şey daha gözəl olar. Özümüzü xoşbəxt görmək istəyiriksə ilk öncə buna inanmalıyıq. Harada olmaq istəyiriksə onun xəyalını qurmalıyıq. Çünki ən inanılmaz uğurlar da, ilk öncə, bir xəyal, arzu ilə başlayır.

Mark Tvenin "İnsan nədir" kitabında gənc və yaşlı adamın söhbətində yaşlı adam xoşbəxtlik haqqında bir fikir deyir: "İnsan bədbəxt bir temperamentlə doğulmuşsa, heç nə onu xoşbəxt edə bilməz və əksinə, xoşbəxt bir temperamentlə doğulmuşsa, onu heç nə bədbəxt edə bilməz". Yəni xoşbəxtliyin açarı kənarda deyil, bizim özümüzdədir. İnsanın xoşbəxtliyi elə düşüncələrindən asılıdır. Hər kəs eynidir əslində. İnsan dünyaya gəlir, yaşayır, yaşadır, sevir, sevilir, aşiq olur, ayrılır, əzab çəkir, nifrət edir, nifrət qazanır, hörmət edir, hörmət qazanır. Amma hər şey bu qədər tez yazılsa da bu qədər tez baş vermir. Səbir etmək lazımdır, çünki səbrin sonunda mükafat çox dəyərli olur.

Bəlkə də bu bahar ümidini itirmiş, həyatla mübarizəsi olanlar üçün bir yeni başlanğıcdır. Bəyəm qurumuş, heç bir həyat əlaməti olmayan ağacın bir yaz günü tumurcuqlaması möcüzə deyilmi?

Yaşamaqdan qorxmayaq, həyatı yaşamaqda gecikməyək!

**Aytən FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin birinci kurs tələbəsi*

# GÜLÜŞÜN ESTETİKASI

Elizbar CAVELİDZE



*(əvvəli ötən sayda)*

Düşünürəm ki, bir az qəribə yanaşmadır. Birincisi, Xoca Nəsrəddinin XIII əsrdə yaşayıb-yaşamaması bu günə qədər müəyyən edilməmişdir. Qəti bir iddia deyil, belə bir fərziyyə V.Qordlevskinin qəti təsdiqlədiyi deyimi deyil, bu cür gümanı vardır. Onda biz hər şeydən əvvəl Xoca Nəsrəddin dövrünün cəmiyyətinin personifikasiyasını, onun ləyaqətini və dünyagörüşünü yaxşı tanımalı və formalaşdırmalıyıq. Yalnız bundan sonra onların ləyaqətindən danışmaq olar, bu da bir növ çətindir. Əks halda, biz tədqiqatçının şəxsi, subyektiv intuisiyası ilə məşğul oluruq ki, bu da bizə obyektiv həqiqəti müəyyən etməyə kömək edə bilməz. Şükrü Kurqan mətnşünaslıq axtarışında daha da irəli gedərək Xoca Nəsrəddinə aid olmayanı qətiyyətli avazla təsdiq edir.

1. Öz lətifələrində sərxoş və ya şərab içdiyi görünmür.
2. O, lətifələrində səfeh və axmaq görünmür, ancaq narahatçılıqlardan qurtulmaq üçün bu yola əl ata bilər.
3. Onun var-dövlətin, qulların və kənizlərin sahibi kimi təqdim etdiyi lətifələr ona aid deyil, çünki o, bütün ömrünü yoxsulluq içində keçirmişdir.
4. Onun lətifələrində həyasızlıq, vicdansızlıq, qadına xəyanət yoxdur.
5. Xocanın xəsislik etdiyini əks etdirən lətifələr ona aid deyil.
6. Onu fiziki cəhətdən güclü insan, mərd, çevik gənc kimi təsvir edən lətifələr də ona aid deyil.
7. Onu hiyləgər, ikiüzlü, acgöz insan kimi təsvir edən lətifələr onun deyil.
8. Xocanı fiziki gücə malik insan kimi göstərirsə, bu fikir ona aid deyil.
9. Sufizmin, Əzəlin və Əbədin inkarını təsvir edən lətifələr, bu cür mövzular ona aid deyil.
10. Onun lətifələri geniş deyil *(Kurgan Ş., "Nasreddin Hoca Uzerine", Vol. I. Uluslararası Türk Folklor Semineri Bildirileri, Ankara, 1974, s. 131-133).*

Bəs bu xeyirxah insan – Nəsrəddinə qarşı nə deyilir? O, öz təxəyyülündə Xocanın müsbət portretini yaratmış və sonra bu portretə uyğun olaraq, müşahidələrinə görə, Nəsrəddinə aid olmamalı olan lətifələri çeşidləmiş və seçmişdir. Yuxarıda müzakirə olunan məsələ ilə bağlı başqa nöqteyi-nəzərlər də var ki, onlara diqqət yetirməkdən əl çəkməyəcəyəm. Amma burada vurğulayacağam ki, bu problem ən akademik şəkildə folklorun ümumi quruluşuna dərindən bələd olan Pertev Naili Boratav tərəfindən müzakirə olunur. Tədqiqatçı Xoca Nəsrəddinin şəxsiyyətini subyektiv təsəvvürə gətirən araşdırmaçıların aktuallığını açıq şəkildə göstərir. Sonra isə öz təxəyyüllərinə uyğun olaraq lətifələrin müəllifinin müəyyənləşdirilməsini ayırd edirlər. Bəziləri Nəsrəddini ideal, savadlı, alicənab və nəcib bir şəxsiyyət, bəziləri isə onu sosiologiyanın və türk xalqının adət-ənənələrinin qüsursuz bilicisi hesab edir və bu yanlış təsəvvürə, fərdi subyektiv baxışlara uyğun olaraq, bəzi lətifələri Xocanın şəxsiyyətinə layiq hesab etmirlər. Xalqar arasında yayılan lətifələri toplayıb bəzilərini kəsib-doğrayırlar, bəzilərini rədd edirlər. Naili Pertev haqlı olaraq belə bir işi və səyi puç iş olaraq hesab edir. Onun haqlı fikrinə görə, Xoca Nəsrəddin tipoloji ikonadır, yəni folklorda müxtəlif zaman və situasiyalarda (kontekstdə) yaradılmış tipi (sifəti) öz personasında birləşdirən şəxsdir *(Boratav P.N., Nasreddin Hoca, Edebiyatçılar Derneği, Ankara, 1996, s. 52).*

Qısası, lətifələrə görə, Naili Boratav Xocanı iki fərqli, bir-birinə zidd tip kimi təqdim edir: Müəyyən lətifələrdə Xoca sağlam düşüncəli, iti dünyagörüşlü və uzaqgörən, aydın düşüncəli, hazırcavab, mahir söz sahibidir. Digər lətifələrə görə, o, ətrafdakılara axmaq mimika ilə gülən, cəfəngiyatla dolu, çaşqın (səpələnmiş) söhbətlə gülən zarafatcıl rolunda görünür (Elə orada, səh. 47).

Gülüşü (ironiyanı) özünə silah seçmiş qəhrəmana bu ikiüzlülük yad deyil.

Yuxarıda qeyd etdim ki, komizm, istər, yaramazlıq, yamanlıq üzərində qurulan gülüş (Aristotel) və ya da başqa filosofların (Şopenhauer, Spenser...) fikirlərini ümumiləşdirsək, gülüş mənfi dəyərlər üzərində "qələbənin əks-sədasıdır" *(Карасев Л.В., Парадокс о смехе, Квинтэссенция, философский альманах, М., 1990, стр. 342).*

Elə burada unutmaq olmaz ki, ümumiyyətlə, gülüş paradoksal xarakter daşıyır, çünki onu doğuran səbəbdən o danışmır *(Elə orada, səh. 344).* Bu məsələləri müzakirə edərkən gülüşün müxtəlif spektrlərdə keçidliyini və öz təbiəti ilə fərqli olduğunu da nəzərə almalıyıq. Onun müxtəlifliyi mövcuddur: "xeyirxah", "qayğısız", "nəvazişli'" və s. Hər halda əsası odur ki, o, subyektiv xarakter daşıyır və qavrayanın təbiətindən çox asılıdır: Komik kontekstə görə biri ürəkdən gülür və qəhqəhə çəkir, digəri isə heç də gülmür! Bu, artıq estetik qavrayışın mətndən kənar sahəsidir ki, burada da obyektiv əsası və ya "qızıl ortanı" qurmaq, demək olar ki, qeyri-mümkündür, çünki o, insanın psixo-bioloji təbəqəsinin öyrənilməsini tələb edir, bu da, mənim tədqiqatımın mövzusu deyildir, digər sahələrdən olan tədqiqatçıların müşahidə və tədqiqatını tələb edir.

Amma elə burada qeyd etməliyəm ki, məqsədyönlü gülüş zamanı yaradıcı obyektiv mövcud olan şərdən xəbərdar olur, onu istehza ilə məzəmmət edir, onu havaya sovurur, halbuki o, şərə (yaramazlığa) cavab verdiyi üçün özünün böyüklüyünü yüksəltdiyini zənn edir. Çünki şərə xeyirxahlıqla və gülüşlə cavab verir. Və bu hiss ona ayağa qalxdığını, rəqibinə qalib gəldiyini hiss etdirir. Digər tərəfdən, gülüş insanın öz "mən"inə yönəlir, özü özünə məzəmmət edir, gülür və bu kontekstdə "mən"i dərk edir: "Komik qiymətləndirmənin ən yüksək səviyyəsi kimi, buna ancaq özündən yuxarı qalxmağı, özünə kənardan mənəvi və intellektual həyəcanla baxmağı bacaran, "mən"i başqası kimi qəbul edə bilən kimsə nail ola bilər" *(Elə orada, səh. 364).*

Bütün yuxarıda deyilənlərdən sonra Xoca Nəsrəddinin axmaq kimi göründüyü lətifələri nəzərə alsaq, onun özünüdərkə yüksəlmiş, öz "mən"inə yönəlmiş ironiya ilə mənəvi kamilliyi paylaşan bir insan olduğunu düşünməliyik. Hesab edirəm ki, belə bir nöqteyi-nəzər tamamilə istisna olunmur, amma şəxsən mən Xoca Nəsrəddinin türk xalqı tərəfindən ümumən xalq yaradıcılığı dünyasını səciyyələndirən ikili xarakterli bir qəhrəman kimi yaradılmasını daha inandırıcı hesab edirəm. Və bir qayda olaraq, iki ölçüdə təqdim olunur: Bir tərəfdən müdrik, iti və zirək deyil, həm də öz çevikliyi ilə rəqibini məğlub edib gülüş doğurur. Digər tərəfdən, o, bizə axmaq kimi görünür və öz kütlüyü ilə həm də oxucuda və ya dinləyicidə gülüş yaradır. Onu da unutmaq olmaz ki, folklorda yeganə silahı gülüş olan komediya aktyoru ideal, qüsursuz obraz kimi göstərilmir, şəxsiyyət kimi qüsurlarla, açıq və tünd cizgilərlə müşaiyət olunur. Bir sözlə, Xoca Nəsrəddin insan acizliyindən, axmaqlığından xilas ola bilməyən təbii insandır. Bunu xalqın müdrikliyi də yaxşı bilir ki, bir lətifə aydın şəkildə Xocanın bir taciri, bir qazini necə aldadıb məsxərəyə qoymasından bəhs edildiyini göstərir. Bu sonuncu Xocaya hücum etdi: "İnsan səni başa düşə bilməz. İstəsən, elə ağıllısan, üstəlik şeytan adamı aldadarsan, istəsən, öküzdən də sarsaq görünə bilərsən". Bu zaman Xoca onların arasında durub dedi: "Mən heç də elə böhtan atan deyiləm, – qazıya işarə etdi, "Bu kimi, nə də bunu kimi öküz", – taciri göstərdi, "Eləcə də mən sizin aranızdayam". Onun bu cür insanlar haqqında müdrik, sağlam, təbii qavrayışını mühakimə edin. Belə ki, fədakar tədqiqatçılar Xoca Nəsrəddinin hər şeyi bilən, müdrik, əyan və qüsursuz bir şəxsiyyət olduğunu nə qədər sübut etməyə çalışsalar da bu, yalnız hamı tərəfindən tanınan Don Kixotun mənimsədiyi yel dəyirmanları ilə mübarizə idi. Yeri gəlmişkən, elə burada vurğulayacağam ki, qüsursuzluqdan və sadəlövhlükdən uzaq Don Kixot oxucunun şüurunda ancaq karikaturaya çevrilir.

*(davamı növbəti sayda)*

Müəllif: **Elizbar CAVELİDZE**
Gürcü dilindən tərcümə etdi:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 MART
2024-CÜ İL
№ 06 (201)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# GÜRCÜSTANDA HƏR 5-Cİ ŞƏXS PENSİYAÇIDIR



Gürcüstanda pensiyaçıların sayı artır. Son 5 il ərzində pensiya alanların sayı 9,8 % artıb və bu, ümumi əhalinin 22,4 %-nə bərabərdir. Bu dövr ərzində isə əhalinin sayı 0,3 % artıb.

Sosial Xidmət Agentliyinin məlumatına görə, 2019-cu ildə pensiya yaşında olanların sayı 762621 nəfər idi, 2020-ci ildə bu rəqəm 783705-ə qədər artıb; pensiya yaşında olanların sayı 2021-ci ildə 793751 nəfər, 2022-ci ildə 808326 nəfər təşkil edib. 2023-cü ilin dekabr ayına olan məlumata görə, Gürcüstanda ümumilikdə 838097 nəfər pensiyaçı var.

Statistika Xidmətinin məlumatına əsasən, 2019-cu ildə ölkə əhalisinin ümumi sayı 3723464 nəfər təşkil edib, bu da həmin dövr üçün pensiyaçıların sayının əhalinin ümumi sayının 19,8 %-ni təşkil etməsi deməkdir. 2020-ci ildə əhalinin sayı 3716858 nəfər (pensiyaçıların sayı 21 %), 2021-ci ildə 3728573 nəfər (pensiyaçıların sayı 21,2 %), 2022-ci ildə 3688647 nəfər (pensiyaçıların sayı 21,9 %), 2023-cü ildə isə 3736357 nəfər (pensiyaçıların sayı 22,4 %) təşkil edirdi.

Son 5 il ərzində pensiyaçıların sayı artaraq ümumi əhalinin 22,4 %-ni təşkil edib. Bu o deməkdir ki, insanların yaşlanması prosesi fəal olaraq davam edir və əgər doğuş baxımından vəziyyət düzəlməzsə yaxın 10 il ərzində pensiyaçıların sayı 28 %-i aşacaq.

*Mənbə: bpn.ge*

# GÜRCÜSTANDA ƏN AŞAĞI VƏ ƏN YÜKSƏK ƏMƏKHAQQI OLAN 5 SAHƏ



Gürcüstanda 2023-cü ilin 4-cü rübündə orta aylıq əməkhaqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə 15,3 %, yəni 270,9 lari artıb və 2044,5 lari təşkil edib. Bu barədə Milli Statistika Xidməti məlumat yayıb.

Statistika Xidmətinin hesabatına əsasən, 2023-cü ilin 4-cü rübündə qadınların orta əməkhaqqı 1607,3 lari, kişilərin isə 2463,8 lari müəyyən edilib.

Məlumatda bildirilir ki, əməkhaqqının illik artımı qadınlarda 195,6 lari (13,9 %), kişilərdə 340,7 lari (16,0 %) təşkil edib. Sahələrə görə kişilərin əməkhaqqı bütün sektorlarda qadınlardan yüksəkdir.

Əməkhaqqının nisbətən yüksək olduğu sahələr:

- İnformasiya və kommunikasiya – 4309,2 lari;
- Maliyyə və sığorta işləri – 3110,0 lari;
- Tikinti – 3062,5 lari;
- Peşə, elmi və texniki işlər – 2920,5 lari;
- Daşıma və yerləşdirmə – 2417,8 lari.

Əməkhaqqının nisbətən aşağı olduğu sahələr:

- Təhsil – 1156,8 lari;
- Su təchizatı, kanalizasiya, tullantıların idarəedilməsi və çirkləndirmədən təmizləmə işləri – 1319,9 lari;
- Kənd, meşə və balıq təsərrüfatı – 1463,1 lari;
- Yerləşdirmə vasitələrinin təmin edilməsi və qida çatdırılması işləri – 1546,2 lari;
- İnzibati və köməkçi xidmət işləri – 1554,9 lari.

*Mənbə: bpn.ge*

# TÜRKİYƏ GÜRCÜSTANIN ƏN BÖYÜK TİCARƏT TƏRƏFDAŞLARI ARASINDA BİRİNCİ YERDƏDİR




Milli Statistika Xidmətinin məlumatına əsasən, bu ilin yanvar-fevral ayları ərzində Gürcüstanın ən böyük ticarət tərəfdaşı Türkiyə olub. Cari ilin ilk iki ayında iki ölkə arasında ticarət dövriyyəsi 471,8 milyon dollar təşkil edib ki, bu da Gürcüstanın ümumi ticarət dövriyyəsinin 16 faizi deməkdir.

Məlumata görə, 2024-cü ilin yanvar-fevral aylarında Gürcüstanın ən böyük 5 ticarət tərəfdaşı sırasında Rusiya 410,6 milyon dollarla ikinci, Çin 221,7 milyon dollarla üçüncü yerdə qərarlaşıb.

Gürcüstanın Azərbaycan ilə ticarət dövriyyəsi 207, 2 milyon dollar təşkil edib. Azərbaycan bu göstərici ilə Gürcüstanın ən böyük xarici ticarət tərəfdaşları arasında dördüncü yerdədir.

Gürcüstanın ilk on ticarət tərəfdaşına, həmçinin Almaniya, Qırğızıstan, Ermənistan, Qazaxıstan və İtaliya daxildir.

# FİZİKİ VƏ HÜQUQİ ŞƏXSLƏRƏ VERİLƏN KREDİTLƏRİN HƏCMİ ARTIB




Bu il martın 1-nə olan məlumata görə, Gürcüstanın kommersiya bankları tərəfindən vətəndaşlara və hüquqi şəxslərə verilən kreditlər 52,24 milyard lari təşkil edib. Fevralda kreditlərin həcmi yanvar ayı ilə müqayisədə 0,68 faiz artıb. Bu barədə məlumat Gürcüstan Milli Bankının hesabatında əksini tapıb.

Bankın məlumatına görə, hüquqi şəxslərə verilən kreditlərin həcmi fevralın sonunda 14,5 milyard lari, ailələrə verilən kreditlərin həcmi isə 27,38 milyard lari təşkil edib. 2024-cü ilin fevral ayında ötən ilin fevralı ilə müqayisədə lari ilə verilən kreditlərin həcmi 14 faiz artıb, xarici valyutada verilən kreditlərin həcmi isə 0,21 faiz azalıb.

Gürcüstan hakimiyyəti bəyan edir ki, kreditlərin həcminin artması son illərdə yüksək iqtisadi artımla əlaqədardır. Belə ki, Gürcüstan iqtisadiyyatında 2021-ci ildə 10,6 faiz, 2022-ci ildə 11 faiz, 2023-cü ildə 7,5 faiz artım qeydə alınıb.

# GÜRCÜSTAN İQLİM DƏYİŞİKLİYİ İLƏ MÜBARİZƏYƏ 3,7 MİLYARD LARİ XƏRCLƏYƏCƏK

Gürcüstan hökuməti 2024-2025-ci illər üçün iqlim dəyişikliyi ilə mübarizə üzrə fəaliyyət planını təsdiqləyib. Fəaliyyət planının həyata keçirilməsinə 3,7 milyard lari xərclənəcək. Bu barədə məlumat Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyi tərəfindən açıqlanıb.

Bildirilib ki, yeni ikiillik plan ölkəyə emissiyaları indiki səviyyədən 10-12 faiz aşağı saxlamağa imkan verəcək. 2021-2023-cü illərdə həyata keçirilən tədbirlərin nəticəsi atmosferə atılan tullantıların azaldılmasında özünü göstərib.

Fəaliyyət planı çərçivəsində ölkə iqtisadiyyatının yeddi sektorunda iqlim dəyişikliyinin təsirlərini yumşaltmaq üçün layihə də hazırlanıb. Layihəyə əsasən, enerji istehsalı və ötürülməsi, nəqliyyat, inşaat, sənaye, kənd təsərrüfatı, tullantıların idarə olunması və meşə təsərrüfatı sahələrində xüsusi tədbirlər həyata keçiriləcək.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.